# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 7 oktyabr tarixli 88 nömrəli və "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 fevral tarixli 64 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 oktyabr tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı"nın 1-ci hissəsinin doqquzuncu abzasında "Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin" sözləri "Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 31 oktyabr tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"na əlavə - "Gömrük brokerlərinin

dövlət qeydiyyatına alınmasına dair reyestrin forması"nda "Vergilər Nazirliyində" sözləri "Dövlət Vergi Xidmətində" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "28" mart 2022-ci il

№ 72